Azərbaycan Respublikasının
Qırğız Respublikasında
Fövqəladə və Səlahiyyətli səfiri
Extraordinary and Plenipotentiary Ambassador
of the Republic of Azerbaijan
to the Kyrgyz Republic

№ SBQK/0021 21/01
14.01.2021

Azərbaycan Respublikası
Auditorlar Palatasının
sədri cənab Vahid Novruzova

Hörmətli Vahid müəllim,

Auditorlar Palatasının yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivin əməkdaşlarını səmimi qəlbdən təbrik edir, müstəqil Azərbaycanımızın iqtisadi qüdrətinin və potensialının artması naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış müstəqil Audit Palatası formalaşdırılmış və onun fəaliyyəti üçün lazımi hüquqi baza yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Auditorlar Palatası audit xidmətinin inkişafına nail olmaqla yanaşı, şəffaflığın artırılması və neqativ hallara qarşı mübarizəyə öz töhfəsini vermiş, beynəlxalq standartların tətbiqinə başlanılmış, daxili audit xidmətinin və auditorların fəaliyyətinə nəzarət sistemləri yenidən qurulmuşdur.

Bu müddət ərzində qazanılmış nailiyyətlər və inkişaf Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən müdrik Dövlət siyasəti nəticəsində mümkün olmuşdur.

İnanıram ki, Auditorlar Palatası bundan sonra da özünün səmərəli fəaliyyəti ilə dövlətimizə öz töhfəsini verəcəkdir.

Məqamdan yararlanaraq Sizə və rəhbərlik etdiyiniz kollektivin əməkdaşlarına möhkəm can sağlığı, müstəqil Azərbaycanımızın inkişafı naminə gərəkli fəaliyyətinizdə bundan sonra da yeni nailiyyətlər arzulayıram.

Hörmətlə,

Hidayət Orucov